

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 2 (21.412)

6 yanvar 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində kollegiya iclası keçirilib

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən 2015-ci ildə görülmüş işlər və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında qarşıya qoyulan vəzifələr haqqında vergilər naziri, III dərəcəli dövlət vergi xidməti müşaviri Əli Mahmudov məruzə edib. Bildirib ki, muxtar respublikada iqtisadi inkişafın nəticəsi kimi 2015-ci il ərzində nazirlik üzrə müəyyən edilmiş proqnoz 105,3 faiz icra olunub. Bu, ondan əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çoxdur.

Nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri barədə də danışan nazir bildirib ki, muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət və iaşə obyektlərində elektron qaydada qeydiyyatdan keçirilmiş 1014 ədəd POS-terminal quraşdırılıb. Bunun 147 ədədi 2015-ci ildə tətbiq edilib. POS-terminallar vasitəsilə aparılmış alqı-satqı əməliyyatları 16 milyon 639 min 561 manata çatdırılıb.

Bildirilib ki, sahibkarlıq fəaliyyətinə başlamaq üçün prosedurların və vaxt itkisinin azalmasına gətirib çıxarmış "bir pəncərə" prinsipinin tətbiqi nəticəsində 20 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına və 2580 fiziki şəxs sahibkarlıq uçotuna alınıb.

Vergi nəzarəti tədbirləri çərçivəsində audit strukturları tərəfindən 2015-ci ildə başa çatdırılmış 145 səyyar vergi yoxlaması nəticəsində 60 min 800 manat əlavə vəsait hesablanıb, 31 min 548 manat maliyyə sanksiyası tətbiq edilib.

Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən 122 operativ vergi nəzarəti tədbirləri həyata keçirilib, keçirilmiş tədbirlər nəticəsində 15 min 577 manat inzibati cərimə və maliyyə sanksiyaları tətbiq edilib və ödənilməsi təmin olunub.



Vurğulanıb ki, muxtar respublikamızda sahibkarlığa dövlət qayğısı nəticəsində əlverişli biznes və investisiya mühiti yaradılıb. Vergilər Nazirliyi tərəfindən aparılmış yoxlamalar, əsasən, vergi ödəməkdən yayınma riski böyük olan ödəyiciləri əhatə edib. Belə ki, səyyar vergi yoxlamalarının sayı aktiv fəaliyyət göstərən vergi ödəyicilərinin 2,6 faizini, operativ vergi nəzarəti tədbirləri isə 2,3 faizini təşkil edib.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilib. Bu dəyişikliklər 2016-cı ilin 1 yanvarından qüvvəyə minib. Dəyişikliklər vergitutma bazasının genişləndirilməsini və vergi ödəyicilərinin hüquqlarının artırılmasını özündə ehtiva edir. Bununla əlaqədar olaraq vergilərin düzgün hesablanaraq ödənilməsinə daha ciddi nəzarət edilməli, vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi işləri davam etdirilməlidir.

Kollegiya iclasında vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Nurlan Əliyevin çıxışı olub. Nazir müavini bildirib ki, hesabat dövrü ərzində sahibkarlıq subyektlərində operativ nəzarətin təşkili, əhali ilə nağd pul hesablaşmalarının aparılması, vergi orqanlarında uçotda durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin, "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yükdaşımaları həyata keçirən şəxslərin, xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan fəaliyyət göstərən şəxslərin aşkar edilməsi, aksiz markalarının tətbiqi, əmək müqavilələrinin bağlanması sahəsində tədbirlər həyata keçirilib, bir sıra nöqsanlara yol verildiyi aşkar olunub. Həmin nöqsanların aradan qaldırılması istiqamətində işlər davam etdirilib. 2016-cı ildə bu nöqsanlara yol verilməməsi üçün maarifləndirmə tədbirləri diqqət mərkəzində saxlanılacaq.

Kollegiya iclasında Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, baş vergi xidməti müşaviri Azər Nağıyevin, Babək Rayon Vergilər Şöbəsinin rəisi, vergi xidməti müşaviri Səftər Əliyarovun, Şərur Rayon Vergilər Şöbəsinin rəisi, kiçik vergi xidməti müşaviri Rəfail Əliyevin çıxışları olub. Çıxışlarda ötən il görülən işlərdən və qarşıda duran vəzifələrdən bəhs edilib.

## Ekoloji tarazlığın qorunması, təbiətin zənginləşdirilməsi diqqət mərkəzində saxlanılıb

2015-ci il bütün sahələrdə olduğu kimi, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə edilməsi sahəsində də mühüm nəticələrlə yadda qalıb. İl ərzində muxtar respublika ərazisində mövcud ekoloji vəziyyətin (ekoloji tarazlığın) qorunması, ətraf mühitin mühafizəsi, təbii resurslardan iqtisadi inkişaf məqsədilə səmərəli istifadə olunması və əlverişli ekoloji mühitin yaradılması üçün dövlət ekoloji siyasəti uğurla davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, 2015-ci ildə muxtar respublikada meşəsalma, meşəbərpa və yeni meyvə bağlarının salınması, mövcud meşə ehtiyatlarının qorunması məqsədilə 541 hektar sahədə yaşıllaşdırma tədbirləri, o cümlədən 27,5 hektar sahədə meşə əkini, 324,2 hektar sahədə meşəbərpa işləri və 139,3 hektar sahədə meyvə bağları, 50 hektar sahədə püstə bağlarının salınması tədbirləri həyata keçirilib. Meşə əkini, meyvə bağlarının salınması və bərpa tədbirləri zamanı 262 min ədəd meyvə, 184 min 200 ədəd meşə, həmişəyaşıl və bəzək kolları olmaqla, ümumilikdə, 446 min ədəd ting əkilib. Bəhs olunan dövrdə meliorasiya və suvarma sistemlərinin təkmilləşdirilməsi sahəsində tədbirlərin davam etdirilməsi nəticəsində 6 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Torpaqların münbitliyinin qorunması və müxtəlif dərəcədə eroziyaya uğramış torpaqların yenidən əkin dövriyyəsinə qaytarılması məqsədilə aparılan yaşıllaşdırma tədbirlərinin 87 faizdən çoxu kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaqlarda aparılıb. Ötən il magistral avtomobil yollarının kənarlarında və digər qeyri-meşə fondu ərazilərində, xüsusilə terras üsulu ilə əkilmiş yaşıllıq sahələrinin suvarılması üçün 5 hektar sahədə damcılı suvarma sistemi tətbiq olunub.

Muxtar respublika ərazisində aparılan biotexniki tədbirlər çərçivəsində məskunlaşmış fauna ehtiyatlarının qış mövsümündə qidaya olan tələbatlarını qismən də olsa yaxşılaşdırmaq, o cümlədən yeni əkilmiş tinglərin, fidanların zərərvericilərdən qorunması məqsədilə müəyyən edilmiş təbiət ərazilərinə 1500 kiloqram buğda, arpa, 6 ton daşduz, 13 ton qaba yem və meyvə-tərəvəz məhsulları paylanılıb.

Ötən il hüquqi və fiziki şəxslər tərəfindən yol verilmiş qanun pozuntularına görə 16 akt və 16 protokol, flora və faunanın, balıq ehtiyatlarının mühafizəsi üzrə isə 10 akt, 10 protokol tərtib olunub. Dəymiş ziyanla bağlı tətbiq edilmiş cərimələrin dövlət büdcəsinə ödənilməsi təmin edilib. Bundan əlavə, 45 su obyektində (6 çay, 10 sututar, 29 göl ) və 29 müşahidə məntəqəsində səth sularının çirklənməsinin monitorinqi həyata keçirilib. İl ərzində götürülmüş 149 su nümunəsi üzərində 1788 analiz aparılıb. Su obyektlərində yüksək və ekstremal çirklənmə halları qeydə alınmayıb.

Məlumatda o da qeyd olunur ki, 2015-ci ildə təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə 37 müəssisəyə və təşkilata 51 min 190 manat ekoloji ödəniş haqqı tətbiq edilib və icrası təmin olunub. Bununla yanaşı, ekoloji maarifləndirmə işləri də diqqət mərkəzində saxlanılıb, il ərzində bu istiqamətdə 110-dan çox kütləvi tədbir keçirilib.

*Muxtar respublikamızda sığorta fəaliyyətinin genişləndirilməsi və vətəndaşların sığorta xidmətləri ilə tam təmin olunması istiqamətində görülən işlər davam etdirilməkdədir.*

## Sığorta fəaliyyəti genişləndirilib

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən aldığımız məlumata görə, artıq başa vurduğumuz 2015-ci ildə agentlik üzrə hüquqi və fiziki şəxslərlə aparılan məqsədyönlü tədbirlər nəticəsində 2014-cü illə müqayisədə, ümumilikdə, sığorta tədiyələrinin toplanması həcmi 2,3 faiz, qeyri-həyat (ümumi) sığortası üzrə sığorta tədiyələrinin toplanması həcmi 2,6 faiz artmışdır. 2014-cü ilin yekunları ilə müqayisədə muxtar respublikada ötən ildə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 1557 ədəd, daşınmaz əmlakın icbari sığortası üzrə bağlanılmış sığorta müqavilələrinin sayı 115 ədəd çox olmuşdur.

Qeyd edək ki, 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən muxtar respublikanın rayon (şəhər) icra hakimiyyətləri ilə birlikdə "Sığorta fəaliyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrə dair" müşavirələr keçirilmişdir. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üçün sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb edilməsi məqsədilə Dövlət Baş Sığorta Agentliyi və Dövlət Yol Polisi əməkdaşları birlikdə müntəzəm reydlər aparmışlar. Bundan başqa, əhalinin sığorta sahəsində maarifləndirilməsi məqsədilə sığorta müqavilələri bağlanarkən sığortanın əhəmiyyəti, şərtləri barədə ətraflı məlumatlar verilməsi diqqətdə saxlanılmış, yığıncaqlar keçirilmiş, vətəndaşlara və sahibkarlıq müəssisələrinə sığortanın ayrı-ayrı növləri ilə əlaqədar bildiriş vərəqələri verilmiş və məlumatlandırma işi aparılmışdır.

*Qış mövsümündə idarə, müəssisə və təşkilatların fasiləsiz fəaliyyət göstərməsini və əhalinin normal yaşayışını təmin edən əsas amillərdən biri də inzibati və ictimai yaşayış binalarının istiliklə təmin edilməsidir. Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, bu məqsədlə Naxçıvan şəhərində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib.*

## Naxçıvan şəhəri etibarlı istiliklə təmin olunur



2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar olaraq bütün qazanxanalara və istilik şəbəkəsi obyektlərinə baxış keçirilib, mərkəzləşdirilmiş qazanxanalarda cari təmir işləri aparılıb, buxar və istilik qazanları təmizlənib, sıradan çıxmış mühərriklər yenisi ilə əvəz edilib, elektrik və qaz xətləri yoxlanılıb, istismar müddəti başa çatan borular və siyirtmələr yenisi ilə əvəz olunub.

Xətt təsərrüfatında əsaslı və cari təmir işləri də diqqət mərkəzində saxlanılıb, qış mövsümündə Naxçıvan şəhərinin daha etibarlı istilik sistemi ilə təmin olunmasına möhkəm zəmin yaradılıb. Baş verə biləcək qəza hallarının vaxtında aradan qaldırılması üçün tədbirlər görülüb, növbətçi elektriklərdən, çilingərlərdən ibarət təmir qrupu, qəza briqadaları yaradılıb.

Əhalinin davamlı olaraq istiliklə təmin edilməsi üçün mərkəzləşdirilmiş qazanxanaların təbii qaz və mazutla, fərdi qazanxanaların isə təbii qaz və dizel yanacağı ilə işləməsi təmin edilib. Yəni qaz təsərrüfatında hər hansı bir qəza baş verərsə, qazanxanalar mazut və dizel yanacağı ilə işləyəcək, istilik sistemində fasilələr yaranmayacaq. İstilik şəbəkələrinin, ictimai yaşayış binalarının aşağı paylama və daxili istilik sisteminin yenidən qurulması ilə əlaqədar kompleks tədbirlər həyata keçirilib. Qazanxanalarda və xətt təsərrüfatlarında baş verə biləcək hər hansı qəzanın vaxtında aradan qaldırılması üçün qəza briqadalarının 24 saat fəaliyyət göstərməsinə, inzibati və ictimai yaşayış binalarının etibarlı istiliklə təmin olunmasına hərtərəfli şərait yaradılıb.

Onu da qeyd edək ki, son illər yeni inşa olunan binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının istilik sisteminin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilir, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilir. Fərdi qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib ki, bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alır, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərinin zədələnmədən aradan qaldırılmasına və müntəzəm nəzarət olunmasına əlverişli şərait yaradır.

Hazırda 5 mərkəzləşdirilmiş və 38 fərdi qazanxana vasitəsilə 173 ictimai yaşayış binasının 7634 mənzili və 32 inzibati bina istiliklə təmin olunur. Tərtib olunmuş qrafikə uyğun olaraq ayrı-ayrı ünvanlarda inzibati və ictimai yaşayış binalarının paylayıcı istilik xətlərinə nəzarət edilir. Həmçinin istilik xətlərinə kənar müdaxilələrin qarşısının alınması məqsədilə İstilik Təsərrüfatı İdarəsinin və mənzil-istismar sahələrinin əməkdaşları tərəfindən vaxtaşırı olaraq reydlər keçirilir, əhali arasında maarifləndirici söhbətlər aparılır.

Havaların qarlı və şaxtalı keçməsinə baxmayaraq, qış mövsümündə Naxçıvan şəhərinin istiliklə təminatında heç bir problem yoxdur.

**Xəbərlər şöbəsi**

# Yeni yollar muxtar respublikamızın inkişafının göstəricisidir

*Nədənsə, yol haqqında söhbətləri hamı diqqətlə dinləyir. Məsələn, dostlarımızdan biri səyahətdə olduğu ölkənin mədəniyyətindən danışdıqda hökmən burdakı yolların vəziyyəti ilə maraqlanırıq. Şübhəsiz, yol inkişafın ən mühüm göstəricisidir. Uzaqları yaxınlaşdıran, insanları bir-birinə qovuşduran geniş yollar çəkildikcə həyat da rahat olur. Bu yollar təkcə rahat gediş-gəliş deyil, onlar bizim abad ev-eşiyimiz, avand işlərimiz, yurdumuza gələn qonaqların gözəl təəssüratıdır.*

Şəhər mədəniyyətinin, güclü iqtisadiyyatın və qonaqpərvərliyin bir simvolu olan rahat və geniş yollar həmişə insanları özünə çəkib. Bu baxımdan indiki yollarımızla gedərkən, sadəcə, yoldur, – deyib keçməyək. Biz bu günlərə necə gəldik? Nə qədər səbir və zəhmətlə bu yollar hasilə gəldi, nə qədər işçi və mühəndis yay-qış dəmədən bu yolların çəkilişində çalışdı? Bir çoxlarını bəzən inandırmaq çətindir. Amma inşaat işindən az-çox məlumatı olanlar bilirlər ki, yol çəkilişi ən mürəkkəb mühəndis-texniki işlərdən biridir. Misal üçün, 15-20 kilometrlik bir yol inşaatı nəzərdə tutulubsa və bu yol da Naxçıvan Muxtar Respublikası kimi mürəkkəb landşaft quruluşuna, torpaq, süxur xüsusiyyətlərinə malik olan bir yerdə çəkilirsə, burada sərt hava şəraiti, yeraltı və yerüstü sular, qayalıq və qumluq ərazilər və bilmədiyimiz daha bu kimi digər təbii maneələr qarşıya çıxacaqdır. Odur ki, indi muxtar respublikamız boyu çəkilmiş yeni yollarla gedərkən qərbdən şərqə, cənubdan şimaladək hər kilometr yolda maddiləşmiş nəhəng əməyin – möhtəşəm tikinti-quruculuğun miqyası gözlərimiz önündə canlanır.

Ötən illər ərzində muxtar respublikamızda Naxçıvan-Sədərək magistralının, Naxçıvan dairəvi avtomobil yolunun, Naxçıvan-Culfa magistral avtomobil yolunun, Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi yolunun, Çeşməbasar-Boyəhməd avtomobil yolunun, Naxçıvan-Şahbuz-Batabat avtomobil yolunun, Hacıvar-Sirab-Vayxır avtomobil yolunun və Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması Naxçıvanda müasir yol şəbəkəsinin yaradılmasına dövlətimizin göstərdiyi diqqətin bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvandakı yol çəkilişlərini, avtomobil yollarının yenidən qurulmasını regionun inkişaf göstəricisi kimi xarakterizə edərək bunu: ***"Yol tikintisi inkişaf, insanların normal, rahat yaşaması üçün əsasdır. Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda bu proses sürətlə gedir və həll olunur"*** şəklində qiymətləndirməsi blokada şəraitində yaşayan muxtar respublikanın hərtərəfli inkişafına nə qədər diqqət yetirildiyini bir daha sübut edir.

Babək rayonu muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinə ən yaxın məsafədə olan iri rayonlardandır. Rayon iqtisadiyyatının inkişafına və əhali məskunlaşmasının sürətinə görə burada yol infrastrukturunun yaradılmasına da xüsusi diqqət yetirilir. Rayonda Naxçıvan şəhəri və öz yaşayış məntəqələri arasında sıx nəqliyyat əlaqələrinə imkan verən yol şəbəkəsinin yaradılması isə ümumiyyətlə, Naxçıvanda gedən sosial-iqtisadi inkişaf proseslərinin bir hissəsidir.



Naxçıvanda müasir yol şəbəkəsinin yaradılması üzrə həyata keçirilən mühüm layihələrdən biri də Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2014-cü il tarixli Sərəncamına uyğun olaraq yenidən qurulmuş Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yoludur. Yeddi yaşayış məntəqəsini birləşdirən və 32 min nəfər sakinin istifadə etdiyi bu yolun böyük iqtisadi əhəmiyyəti vardır. Belə ki, rayonun ən iri yaşayış məntəqələrini birləşdirən bu yolla hər gün minlərlə avtomobil hərəkət edir.

Ötən il dekabrın 1-də ölkə başçısının açılışında iştirak etdiyi bu yolun tikintisi, təqribən, bir il müddətində yüksək keyfiyyətlə başa çatdırılıb.

Bəs, bütövlükdə, muxtar respublikamızın sosial-iqtisadi həyatında əlamətdar bir hadisə olan bu yeni salınmış yolun əhəmiyyəti nədir? Çəkilmiş hər yeni yolun kollektiv rifah yaratmadakı əhəmiyyətindən əlavə, o həm də bir investisiya gücünə malikdir. Şübhəsiz, rahat yolu olan bir yaşayış məntəqəsinin digərləri ilə müqayisəsi çox asandır. Gediş-gəlişi rahat olan yaşayış məntəqəsi ən ucqarda da olsa, orada daha çox evlər tikiləcək, torpaqlar daha yaxşı əkilib-becəriləcək, daşınmaz əmlakın qiyməti artacaqdır. Bu da, öz növbəsində, həmin ərazilərin cazibədarlığını artıran amillərdəndir. Göründüyü kimi, insanın rahatlığına xidmət edən rahat yol, sadəcə, bir yol olmaqdan əlavə, həm də ondan istifadə edən yüzlərlə, minlərlə sakinin həyatını kökündən dəyişdirən ən savab işdir.

Babək rayonunda yeni salınan yolla bağlı qəzetə yazı hazırlamaq üçün buraya gəldiyimdə yaxın keçmişdəki günlər yadıma düşdü. Təxminən, 7-8 il əvvəl Nehrəm kəndində müəllim işlədiyim zaman bu kəndin camaatının müəllim adına olan hörmətini, təhsilə olan ciddi münasibətini və bir də həftədə üç gün ərzində gedib-gəldiyimiz həmin yolları bir daha xatırladım. Yolüstü ötən ilin sonlarında istifadəyə verilmiş Nehrəm kənd 2 nömrəli tam orta məktəbin qarşısında dayanıb tanışlardan kimisə görmək istədim. Bu dəfə rastıma çıxan Azərbaycan Respublikasının Əməkdar müəllimi Alidə Fətullayeva və köhnə dostum Əli Əliyevlə Nehrəmdə işlədiyimiz həmin günləri bir daha yada saldıq. Razılıqla dedilər ki, aradan keçən bu müddətdə təkcə yollarımız dəyişməyib. Bilirsiniz, bu yerlərin camaatı çox işgüzardır. Son illərdə kəndlərimiz çox böyüyüb və gözəlləşib. Uşaqlarımız daha yaxşı oxuyurlar. Dövlətimizin hər qayğısı onlara geniş yollar açır. Biz də yaşamaqdan və işləməkdən zövq alırıq.

**Əli CABBAROV**

# Yüksək keyfiyyəti, dadı, tamı və münasib qiyməti ilə seçilən *Naxçıvan məhsulları*

***– Ay bala, ay oğul, dükanın malıdır, o qutuların üzərinə çıxmayın. İçərisində olan peçenye əzilər, çıraq şüşələri sınar. Əlindəki qutunu göstərib, – bu da kərə yağıdır, görək birtəhər çatdırsaq yaxşı olar. Qorxuram ki, əriyə, – deyən satıcılar toyuq-cücələrini qoruyan kimi, mallarını qoruya-qoruya çatdırırdı dükana.***





Düşünürəm ki, bu söhbətləri ucqar dağ və sərhəd kəndlərində yaşayan, marşrut avtobusundan istifadə edən hər bir sərnişin eşidib. Ayaq üstə durmağa yox, bir ayağını qoymağa belə, yer tapmayan "PAZ" avtobusunda tər tökə-tökə, üstəlik də yanacaq iyindən boğula-boğula 60-70 kilometrlik yol gedən sərnişinlər bu bir neçə saatlıq "mənzərənin" şahidi yox, iştirakçısı olublar. Birtəhər kəndə çatdırılan malların yarıqaranlıq, palçıqdan tikilmiş dükanlarda satıldığının şahidi, yarısını siçovullar yeyən ərzaq məhsullarının müştəriləri az olmamışıq. Kəndlərdən fərqli olaraq şəhərdə daha çox dəmir dükanlarda, heç bir şəraiti olmayan yerlərdə satılan ərzaq məhsullarının da alıcısı olmuşuq. "Həsənəli, xeyir işimiz var, imkan etsən Gürcüstan limonadı, Moskva olmasa, Bakı kolbasası, Rusiya və Türkiyə istehsalı olan meyvə şirələri tap gətir", – deyib xahiş edənləri də görmüşük.

"Hər şey zamana baxsa da, zaman heç nəyə baxmır", – deyiblər. Zaman öz işini gördü. Süfrələrimizin, əyin-başımızın, tikilən binalarımızın xaricdə istehsal olunan, mənşəyi məlum olmayan ərzaq və qeyri-ərzaq məhsulları ilə bəzədilməsinə son qoyuldu. Ona görə ki, həmin məhsulları istehsal etmək üçün kifayət qədər xammalımız, təbii ehtiyatlarımız, bir də sahibkarlara yüksək dövlət qayğısı var. Müasir avadanlıqlar alınıb gətirildi, emal və sənaye müəssisələri quruldu. Xüsusilə də yerli xammalla işləyən emal və sənaye müəssisələrinə üstünlük verildi, dövlət maliyyə dəstəyi göstərildi. Təbii ki, yaradılan yeni müəssisələrdə yeni iş yerləri açıldı. Əhalinin məşğulluğu təmin olundu, maddi rifahı daha da yaxşılaşdırıldı.

Artıq 4-5 kəndə bir marşrut yox, hər kəndə bir marşrut avtobusu işləyir. Özü də "PAZ" avtobusu deyil, "Mercedes" markalı mikroavtobuslarla sərnişindaşıma xidməti göstərilir. Dükanlara da ərzaq məhsulları sərnişin avtobusları ilə deyil, soyuducu kamera ilə təmin edilmiş xüsusi yük avtomobilləri ilə daşınır. Hər kənddə tikilib istifadəyə verilən xidmət mərkəzlərində nümunəvi xidmət üçün hər cür şərait yaradılıb, onlar soyuducularla təmin edilib. Şahidi olduğumuz tanış ifadələr də yeniləri ilə əvəz olunub. Artıq xeyir işi olanlara Həsənəli seçim etməyi təklif edir: – "Naxçıvan", "MM", "Bərəkət", "Hilal" kolbasaları, yaxud da "Prestij", "Qızıl su", "Korabulaq" limonadları, "Badamlı" meyvə nektarları, "Nati" şokoladları, "Ləzzət", "Şərur", "Kırna" broyler toyuqları var. Hansını istəsəniz hazırlayım, gəlin götürün", – deyir.

Artıq yağış yağan zaman ayağına su dolan ayaqqabılardan gileylənən yox, təmiz dəridən hazırlanıb, 3-4 ildir geyinirəm, – deyən "Şirvanşahlar"ın istehsal etdiyi ayaqqabılardan, "Zümrüd"ün kostyumlarından, "Gəmiqaya"nın binalarımıza xüsusi gözəllik verən travertin daşlarından, yayı sərin, qışı isti olan tuğla kərpicindən, Naxçıvan sementinin keyfiyyətindən və münasib qiymətindən razılıq edən ifadələri eşidirik.

Naxçıvan məhsulları təkcə adını çəkdiyimiz məhsullarla məhdudlaşmır. Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi özəl sektorun ümumi daxili məhsuldakı payının ilbəil artması ilə müşahidə olunur. Bu artım, öz növbəsində, daxili bazarın yerli istehsal hesabına keyfiyyətli məhsullarla təmin olunmasına rəvac verib. 1995-1996-cı illərdə yalnız 4-5 növ məhsula olan tələbatın az bir hissəsinin yerli istehsal hesabına ödənildiyi muxtar respublikamızda hazırda 119 növdə ərzaq, 242 növdə qeyri-ərzaq olmaqla, cəmi 361 növdə məhsul istehsal olunur. 107 növdə ərzaq, 236 növdə qeyri-ərzaq olmaqla, cəmi 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Yerli məhsulların keyfiyyətinə də ciddi nəzarət edilir. İstehsal olunan yerli məhsulların keyfiyyətli olması işin bir tərəfidirsə, istehlakçılara çatdırılması da onu tamamlayan başqa bir tərəfidir. Hazırda istehsal olunan məhsullar ayrı-ayrı şirkətlər tərəfindən vaxtında və keyfiyyətlə yerlərə çatdırılır. Üzərində "Bərəkət", "Ləzzət" və digər tanıtım nişanları yazılmış xüsusi avtomaşınlar ayrı-ayrı yaşayış məntəqələrində şütüyür. Yerli müəssisələr xidmət mərkəzlərini tələbata uyğun yerli məhsullarla təmin edirlər.



Naxçıvan elə bir məkandır ki, burada bitən bitki, yetişən hər bir meyvə dadına, tamına görə digər bölgələrin məhsullarından fərqlənir. Bu bitkilərdən qidalanan heyvanların əti və istehsal olunan ət və süd məhsulları da həmçinin.

Naxçıvanda yaşayan dostumdan bir nəfər ziyalı xahiş edir ki, Bakıya gələndə Naxçıvandan 2-3 kiloqram pendir və mal əti al gətir. Dostum da fikirləşir ki, əşi, mal əti elə Bakıda da mal ətidir də. Bakı şəhərindəki Laçın bazarından 10 kiloqram ət alıb, aparıb verir evlərinə. 2-3 gün sonra həmin ziyalının yanına gedir. Baxır ki, məşğuldur. Bir neçə dəqiqədən sonra eynəyini çıxarıb, – müəllim, gətirdiyin pay üçün çox sağ ol. Amma sizə dedim ki, Naxçıvandan 2-3 kiloqram mal əti alın. Yoxsa, Laçın bazarı yanımdadır. 20 kiloqram da ət almaq imkanım var. Naxçıvan məhsullarının daimi alıcısıyam. Dadına, tamına da yaxşı bələdəm. Pendir Nehrəm pendiri idi, – deyib gülür.

Sən demə, biz fərqinə varmamışıq. Elə bilmişik ki, məhsulların hamısı eynidir. Bakıda yaşayan, əslən naxçıvanlı olan dostlarımdan birinin qonağı oldum. Süfrə açmışdı. Süfrəyə düzülən nemətlərin də çoxu Naxçıvan məhsulları idi. Gəldəngetdən söhbət edir, uşaqlıq xatirələrini vərəqləyir, Naxçıvan dağlarından sobu, çaşır yığmasından danışırdı. Süfrədəki turşunu göstərib, – bu da bizim sobudu, dadına bax, – dedi. Götürüb yedim. Baxdım ki, bu sobudan neft dadı gəlir.

– Bu nədi, – dedim.

Güldü: – Hə, dostum, Naxçıvanda təmiz məhsullardan yeyib dostunu da yada salmırsan. Biz də məcbur olub Bakı ətrafındakı dağlardan yığmışıq. Ona görə də neft dadı gəlir.

Bəli, təmiz havası, suyu, gülüçiçəyi insan sağlamlığı üçün dərman olan Naxçıvanın məhsullarının alıcısı başının üstündədir. İri şirkətlərdən fərqli olaraq kiçik və fərdi sahibkarların istehsal etdikləri məhsulların Bakı şəhərinə və xarici bazarlara çıxarılması, tanıdılması və satılması ilə bağlı çətinliklər də aradan qaldırılmış, yerli məhsullarımızı "Naxçıvan məhsulları" tanıtım nişanı ilə satışa çıxaran məhdud məsuliyyətli cəmiyyət də yaradılmışdır.

Artıq fərdi və kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar da istehsal etdikləri məhsulların satışından əldə etdikləri gəlirlə fəaliyyətlərini genişləndirir, yerli xammaldan səmərəli istifadə etməklə bazarın tələbatına uyğun yeni çeşiddə məhsullar istehsal edib satışa çıxarırlar. Bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, satışa çıxarılan, keyfiyyəti, dadı, tamı, münasib qiyməti ilə seçilən Naxçıvan məhsullarının həmişə olduğu kimi, bu gün də alıcı problemi yoxdur.

**Kərəm HƏSƏNOV**

# 2015-ci ildə Naxçıvanın tarixi, etnoqrafiyası, folkloru, təbii sərvətlərinin öyrənilməsi istiqamətində mühüm işlər görülmüşdür

*Müsahibimiz AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir*

*– İsmayıl müəllim, artıq 2015-ci ili yola saldıq. Ötən il muxtar respublika hansı əlamətdar hadisələrlə yadda qaldı? İstərdim söhbətimizə buradan başlayaq.*



– 2015-ci il həm ölkəmizin, həm də muxtar respublikamızın həyatına uğurlu bir il kimi daxil olmuşdur. Baxmayaraq ki, dünyada çox mürəkkəb hadisələr baş verir, iri dövlətlər öz maraqlarına üstünlük verdiyindən obyektiv mövqe tutmur, ikili siyasət aparırlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş, ölçülüb-biçilmiş siyasəti və qətiyyətli mövqeyi respublikamızın hərtərəfli inkişafını təmin etmişdir. Muxtar respublikamız da bu inkişafdan kənarda qalmamış, sosial-iqtisadi cəhətdən sürətlə inkişaf edən bir diyara çevrilmişdir.

2015-ci il muxtar respublikamız üçün də əlamətdar hadisələrlə yadda qalmışdır. Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər azad, demokratik və şəffaf şəraitdə keçirilmiş, ölkəmizin və muxtar respublikamızın ən dəyərli övladları bu seçkilərdə qalib gəlmişlər.

Ən yaddaqalan hadisələrdən biri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 1 dekabr 2015-ci il tarixdə Naxçıvan Muxtar Respublikasına növbəti səfəri idi. Dövlət başçısı səfər çərçivəsində bir sıra sosial və iqtisadi obyektlərin açılışında iştirak etmiş, Naxçıvanda görülmüş işlərə yüksək qiymət vermişdir.

*– AMEA Naxçıvan Bölməsinin 2015-ci il ərzindəki elmi-təşkilati fəaliyyəti barədə məlumat verməyi xahiş edirik.*

– AMEA Naxçıvan Bölməsi təsdiq olunmuş plan əsasında elmi-tədqiqat işlərini davam etdirmişdir. 2015-ci ildə 32 işin 86 mərhələdə yerinə yetirilməsi nəzərdə tutulmuşdu. İl ərzində AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin 11 iclası keçirilmiş, 60 qərar və 6 sərəncam qəbul edilmişdir. İşimizi təsdiq olunmuş iş planına uyğun qurmuş, planda göstərilən vəzifələri yerinə yetirməyə çalışmışıq.

Hesabat ilində Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclaslarından biri muxtar respublikamızda keçirilmiş, tədbir çərçivəsində AMEA Naxçıvan Bölməsində Distant Təhsil Mərkəzinin açılışı olmuşdur.

AMEA Naxçıvan Bölməsinin əməkdaşları apardıqları elmi tədqiqatları reallaşdırmış, kitab, monoqrafiya və elmi məqalələr şəklində nəşr etdirmişlər. Ötən il elmi əməkdaşların 571 əsəri, o cümlədən 13 monoqrafiyası, 5 kitabı, 2 metodik vəsaiti, 523 elmi məqaləsi, 28 tezisi nəşr edilmiş, 3 patent alınmışdır. Əsərlərdən 158-i xarici ölkələrin elmi nəşrlərində çap edilmişdir. Son beş ildə 46 məqalə impakt faktorlu jurnallarda çıxmışdır ki, bunun 24-ü ötən ilə aiddir. Bu, çox mühüm nəticədir, yəni tədqiqatların bir qismi beynəlxalq səviyyədədir. Nəşrlər arasında ən böyük uğurumuz Ali Məclis Sədrinin Sərəncamı ilə çoxcildli "Naxçıvan tarixi"nin tamamlanması, yəni üçüncü cildin nəşr olunmasıdır.

2015-ci ildə əvvəlki illərdə olduğu kimi, ən çox diqqət yetirilən məsələlərdən biri yüksəkixtisaslı elmi kadrların hazırlanmasıdır. Düzdür, bu sahədə hələ də lazımi nəticə əldə edə bilməmişik. Bununla belə, 2015-ci ildə 1 nəfər elmlər doktoru, 5 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə etmiş, bir neçə nəfər doktoranturaya qəbul olunmuş, dissertant kimi fəaliyyət göstərmiş, 7 nəfər dosent elmi adını almışdır.

Beləliklə, bölməmizdə elmi işçilərin 72 faizinin elmi dərəcəsi və elmi adı olmuşdur. Bunlar arasında 2 akademik, 6 müxbir üzv, 4 elmlər doktoru, 50 nəfərə yaxın fəlsəfə doktoru vardır.

Kadr hazırlığında bölmədə fəaliyyət göstərən dissertasiya şuralarının da mühüm rolu olmuşdur. Bu şuralarda 3 ixtisas üzrə fəlsəfə və elmlər doktoru, 2 ixtisas üzrə isə fəlsəfə doktoru dissertasiyaları müdafiə edilir.

Elmi əməkdaşlarımızın beynəlxalq, respublika və muxtar respublika səviyyəli simpozium, konfrans və tədbirlərdə iştirakı da qənaətbəxşdir. Ötən il 59 əməkdaşımız 33 beynəlxalq tədbirdə iştirak etmişdir.

Əməkdaşlarımız Elm Fondunun keçirdiyi Qrand müsabiqələrində də qalib gəlmişlər. 2015-ci ildə elmi əməkdaşlarımız üç layihənin qalibi olmuşlar. Fərəh doğurası haldır ki, onlar arasında gənc tədqiqatçılar da vardır.

Ötən il əməkdaşlarımız ən yüksək fəxri adlara və mükafatlara layiq görülmüşlər. Bütün bunlar elm sahəsinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir.

*– Ötən il institutlar üzrə elm sahəsində əldə edilən yeniliklər nədən ibarətdir?*

– Təbii ki, qazanılan uğurlar, əldə edilən nailiyyətlər elmi-tədqiqat institutlarında çalışan elmi işçilərin məhsuldar fəaliyyətinin nəticəsində mümkün olur. Tarix və arxeologiya sahəsindəki yeniliklərdən yuxarıda bəhs etdik. İlk dəfə olaraq 3 cildlik "Naxçıvan tarixi" tamamlanmış, I Kültəpə və Qızqalada Naxçıvan tarixi ilə bağlı mühüm yeniliklər əldə olunmuşdur. "Naxçıvan dialektlərinin frazeologiyası" monoqrafiyası Almaniyada rus dilində nəşr edilmişdir. AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşlarının iştirakı ilə "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" 4 dildə işıq üzü görmüşdür. Naxçıvanın bütün təbii sularını əhatə edən ilk monoqrafiya – "Təbii suların geokimyası və Naxçıvan Muxtar Respublikasında yayılma xüsusiyyətləri" adlı kitab çap olunmuşdur. Bioresurslar İnstitutunun əməkdaşlarının iştirakı ilə Farmakoqnoziyaya və Şahbuz Dövlət Təbiət Qoruğunun florasına aid ümumiləşdirici əsərlər hazırlanmışdır. Naxçıvan Muxtar Respublikasının herpetefaunasına aid ilk kitab elmi ictimaiyyətə təqdim olunmuşdur. Qeyd edə bilərik ki, elmi-tədqiqat institutlarında aparılan tədqiqatlar nəticəsində 11 mühüm nəticə əldə edilmişdir. Həmin nəticələr 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının mühüm nəticələrinə daxil edilmək üçün təqdim olunmuşdur.

*– 2015-ci ildə arxeoloji qazıntılar və qədim əlyazmalar əsasında hansı tarixi faktlar üzə çıxarılıb?*

– AMEA Naxçıvan Bölməsi fəaliyyət göstərdiyi 2003-cü ildən arxeoloji qazıntı işləri ilə məşğul olur. 2006-cı ildən isə beynəlxalq arxeoloji ekspedisiya fəaliyyət göstərir ki, bu ekspedisiyanın tərkibində Azərbaycan arxeoloqları ilə yanaşı, ABŞ, Fransa, Türkiyə, Macarıstan və başqa ölkələrin arxeoloqları da çalışırlar. 2015-ci ildə arxeoloji qazıntılar I Kültəpə, Qızqala, Xarabagilan, Şorsu, Zirinclik abidələrində aparılmışdır. I Kültəpə abidəsində vaxtı ilə qazıntılar aparılmış və bu abidənin e.ə. VI minilliyə aid olduğu göstərilmişdir. I Kültəpə Cənubi Qafqazda Neolit və Eneolit mədəniyyətinin ən qədim abidələrindən biridir. 2013-2014-cü illərdə, xüsusilə 2015-ci ildə burada aparılan tədqiqatlar abidənin e.ə. VII minilliyə aid olmasını sübut etmişdir. Bu faktın özü I Kültəpə abidəsinin Neolit dövrünə aid olduğunu təsdiq edir.

İkinci bir tarixi fakt Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Qızqala yaşayış yerində aparılan araşdırmalar zamanı dəqiqləşdirilmişdir. Orta Tunc dövrünə (e.ə.III-II minillik) aid olan Qızqala yaşayış yerindən boyalı qablar aşkar edilmiş və bunlar Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu sübuta yetirmişdir. Qızqala yaşayış yerində müdafiə divarları aşkar edilmişdir ki, bu da Orta Tunc dövründə Naxçıvanda hərbi potensiala malik olan tayfaların yerləşdiyini təsdiqləyir. Arxeoloqların fikrincə, Qızqala Naxçıvanda I Kültəpə, II Kültəpə və Qızılburundan sonra dördüncü mühüm abidədir.

Göründüyü kimi, arxeoloji tədqiqatlar əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də yeni faktların aşkara çıxarılması ilə diqqəti cəlb edir. Qızqala yaşayış yerinin tarixi əhəmiyyəti diqqəti cəlb etdiyindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci il iyulun 27-də Qızqala və Ovçular təpəsi abidələri ilə tanış olmuş, öz tövsiyə və tapşırıqlarını vermişdir.

Əlyazmalara gəldikdə isə bu sahədə də maraqlı və əhəmiyyətli faktlar aşkar edilmişdir. Son illərdə əldə olunan qədim kitablar və əlyazmalar hesabına burada 457 belə materiallar qorunur və onların bir hissəsi tədqiq edilir. 2015-ci ildə 6 əlyazma əldə edə bilmişik. Məhəmməd Naxçıvaninin Təbriz Milli Kitabxanasında olan 2 cildlik kataloqunu əldə etmiş, onun I cildini tərcümə edərək kitab şəklində çapına nail olmuşuq. 2015-ci ildə Əlyazmalar Fondunda qorunan Hatif İsfahaninin (Ordubadlı) "Tibbinamə" əsəri tərcümə və şərhlərlə çap edilmişdir. Kitabda müxtəlif xəstəliklər və bu xəstəliklərin müalicəsində istifadə olunan dərmanlar, yeməklər, içkilər haqqında geniş məlumat verilir.

*– Bəs Naxçıvanın dövlətçilik tarixi ilə bağlı hansı elmi tədqiqatlar aparılıb?*

– Məlumdur ki, Naxçıvan diyarı qədim mədəniyyəti, dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın sivilizasiya mərkəzlərindən biri olmuşdur. Naxçıvanın Azərbaycanın dövlətçilik tarixindəki rolu istiqamətində tədqiqat işləri aparılmış və bununla bağlı bir neçə elmi məqalə nəşr edilmişdir. "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" adlı monoqrafiya hazırlanmış və 2016-cı ilin nəşr planına daxil edilmişdir. Naxçıvan xanlığı ilə bağlı tədqiqat işləri davam edir. XX əsrin əvvəllərində Naxçıvan diyarının ictimai-siyasi vəziyyəti araşdırılır, Araz-Türk Respublikasının tarixi ilə bağlı kitab üzərində işlənilir. Naxçıvan Muxtar Respublikasının keçdiyi tarixi inkişaf yolu, qəbul edilmiş konstitusiyalar, müstəqillik illərindəki inkişaf istiqamətində tədqiqatlar aparılır.

*– Ötən il Naxçıvanda keçirilən beynəlxalq simpozium hansı yeniliklərlə yadda qaldı?*

– 2014-cü il iyulun əvvəlində keçirilən "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" beynəlxalq konfransın materialları 2015-ci ildə toplu halında çapdan çıxmışdır. Bu konfrans Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr edilmişdi.

Ötən il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Kitabi-Dədə Qorqud" dastanının alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd olunması ilə bağlı sərəncam imzalamışdır. Həmin sərəncamın Naxçıvan Muxtar Respublikasında icrası ilə bağlı Ali Məclis Sədrinin sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq, "Naxçıvanda Dədə Qorqud" beynəlxalq simpoziumu keçirilmişdir. Simpoziumun plenar və bölmə iclaslarında 50-yə qədər məruzə dinlənilmişdir. Məruzələrdə "Kitabi-Dədə Qorqud" dastanı müxtəlif istiqamətlərdə təqdim edilməklə yanaşı, "Kitabi-Dədə Qorqud" dastanı və onun Naxçıvanla bağlılığı", "Dədə Qorqud" dastanında Naxçıvan toponimləri", "Culfa şivələrində işlənilən bir sıra arxaik leksik vahidlərin "Kitabi-Dədə Qorqud" dastanlarında əksi", "XII-XIII əsrlər Naxçıvan tarixi coğrafiyasında "Kitabi-Dədə Qorqud" izləri", "Naxçıvan və "Kitabi-Dədə Qorqud" toponimikasında etnoloji bağlar sistemi" və başqa bu kimi mövzular öz əksini tapmışdı. Təbii ki, bu məruzələrdə Naxçıvanın tarixi, dilimiz və mədəniyyətimizlə bağlı bir sıra dəqiqləşmələr, yeni faktlar ortaya çıxmışdır.

*– AMEA Naxçıvan Bölməsinin gələcək planları haqqında nə deyə bilərsiniz?*

– Bu günlərdə AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat müəssisələrində 2016-cı ildə və 2016-2020-ci illərdə aparılacaq elmi-tədqiqat işləri geniş müzakirə edilmişdir. Təbii ki, seçilən mövzuların tam əksəriyyəti Naxçıvanın tarixi, mədəni mühiti, təbii ehtiyatları, biomüxtəlifliyi ilə əlaqədardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin son illərdə Naxçıvanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri ilə bağlı verdiyi sərəncamlar bizim vəzifələrimizi müəyyən etmişdir. Xüsusilə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 11 fevral 2014-cü il və "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" 2015-ci il 7 oktyabr tarixli sərəncamlar həmin abidə və türbə haqqında tədqiqat işlərini genişləndirməyi tələb edir.

Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında Naxçıvanın tarixi, etnoqrafiyası, folkloru, təbii sərvətlərinin öyrənilməsi istiqamətində elmi-tədqiqatların davam etdirilməsi, ümumiləşdirici əsərlərin yazılmasının təmin edilməsi vəzifələri qarşımıza qoyulmuşdur. Bu, bizim fəaliyyətimizi istiqamətləndirmişdir. Əməkdaşlarımız qeyd olunan istiqamətlərdə, eləcə də AMEA Naxçıvan Bölməsinin şöbə və laboratoriyalarında müəyyən edilmiş elmi istiqamətlərdə fəaliyyətlərini daha əzmlə davam etdirəcəklər.

**Müsahibəni hazırladı:**
**✍ Sara ƏZİMOVA**

---

*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyevanın Naxçıvan dialektinin frazeologiyasına həsr olunmuş "Naxçıvan dialektinin frazeologiyası" monoqrafiyası Almaniyada rus dilində çapdan çıxmışdır.*

*Yeni nəşrlər*

## Azərbaycan dilini təbliğ edən əsər




Almaniyanın "Lambert" nəşriyyatı tərəfindən çap edilən kitabda Naxçıvan dialektinin frazeologiyası tədqiqata cəlb olunmuşdur. Frazeologiya dilin ən az tədqiq olunmuş sahələrindən biridir. Ümumxalq dilinin frazeologiyası isə, demək olar ki, tədqiqata cəlb olunmamışdır. Bu günə qədər dialektologiyaya aid yazılmış əsərlərdə bu sahəyə toxunulmamış, dialekt və şivələrimizin frazeologiyası öyrənilməmişdir. Kitabda ilk dəfə olaraq Naxçıvan dialektinin frazeologiyasından bəhs edilir. Naxçıvan bölgəsinin dialekt və şivələri frazeoloji vahidlərlə zəngindir. Burada ədəbi dilimizdə işlənməyən, ya da fərqli şəkildə işlənən maraqlı frazeoloji vahidlər vardır ki, onlar uzun əsrlərin məhsuludur və aid olduğu ərazinin şəraiti, adət-ənənələri, burada yaşayan insanların məşğuliyyətini özündə əks etdirməklə regionun tarixi haqqında da bizdə aydın təsəvvür yaradır. Kitabda Naxçıvanın ayrı-ayrı rayonlarından frazeoloji vahidlər – idiomlar, ibarələr, atalar sözləri və zərbi-məsəllər toplanaraq tədqiqata cəlb olunmuşdur. Burada sabit birləşmələrin modelləri ayrı-ayrılıqda təhlil olunmuş, onların hər birinə aid dialekt materialları verilmiş, yeri gəldikcə Azərbaycan dilinin digər dialekt və şivələri ilə, qədim yazılı abidələrlə müqayisələr də aparılmışdır.

Bu cür vahidlər obrazlılıq xüsusiyyətinə malik olduğu üçün uzun əsrlər boyu xalqın dilində öz mənasını itirmədən yaşaya bilir. Burada elə sözlər birləşir ki, onları bir-birindən ayırmaq, başqası ilə əvəz etmək, hər bir sözü müstəqim mənada düşünmək olmur. Ədəbi dilin inkişafı, bədii üslubun daha təsirli olmasına kömək etmək üçün dialekt və şivələrdən frazeoloji vahidlərin – sabit söz birləşmələrinin toplanması və öyrənilməsinin çox böyük əhəmiyyəti vardır. Naxçıvan dialektində işlənən frazeoloji vahidlər çox zəngin və rəngarəng üslubi imkanlara malikdir. Buradakı yüksək milli koloritə malik sabit birləşmələr, dərinmənalı atalar sözləri, müdrik məsəllər, gözəl ibarələr Azərbaycan dilinin, o cümlədən dialekt və şivələrimizin son dərəcə zəngin bədii və obrazlı fondunu təşkil edir.

Naxçıvan dialektinin lüğət tərkibindəki frazeoloji vahidlər Azərbaycan xalqının tarixi, adət-ənənəsi, psixologiyası və düşüncə tərzinin ifadəçisi olduğundan bu vahidlərin linqvistik araşdırılması, nəticədə, xalqımızın tarix və etnoqrafiyasının, həyat və yaşayış tərzinin öyrənilməsinə gətirib çıxarır.

Əsərin rus dilində nəşr olunması təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da dilimizin təbliği işində böyük əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, ictimai inkişafın yüksək pilləsində olan dillər məcazi mənalı sözlərlə zəngin olur, o zaman burada verilən nümunələr Azərbaycan dilinin qədimliyini, zənginliyini bir daha sübut edir. Kitab tədqiqatçılar, tələbələr üçün dəyərli elmi mənbədir, habelə geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

**Nigar SADIQZADƏ**
*AMEA Naxçıvan Bölməsinin əməkdaşı*

## "Ən yaxşı ümumi təhsil müəssisəsi" müsabiqəsinin qalibləri

***Hər hansı bir ölkədə təhsilin inkişafına xüsusi diqqət yetirilirsə, deməli, orada xalqın işıqlı sabahına ümid və inamla baxmaq olar. Bu gün ölkəmizdə təhsilin inkişafına yüksək diqqət və qayğı göstərilməsinin səbəbi də məhz bununla bağlıdır. Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanda təhsilin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizdə təhsilin müasirləşdirilməsi və problemlərinin mərhələli həlli, müəllim kadrlarının hazırlığı, inkişaf etmiş ölkələrin bu sahədəki zəngin təcrübəsinin mənimsənilməsi, ümumtəhsil məktəblərində kompüter və informasiya texnologiyalarının geniş tətbiqi kimi məsələlərə xüsusi diqqət və qayğı göstərməsi nəticəsində bu sahədə böyük nailiyyətlər əldə edilib.***



*Naxçıvan şəhərindəki 14 nömrəli tam orta məktəb*



*Ordubad rayon Aşağı Əylis kənd tam orta məktəbi*



*Culfa şəhər 2 nömrəli tam orta məktəb*

Muxtar respublikamızda da təhsilin inkişaf etdirilməsi, müasirləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi diqqət mərkəzində saxlanılır. Hər il muxtar respublikamızın müxtəlif ünvanlarında məktəb binaları tikilərək və ya yenidən qurularaq istifadəyə verilir. Yeni təhsil müəssisələrində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılır, fənn kabinələri, laboratoriyalar, açıq və örtülü idman qurğuları istifadəyə verilir, müasir informasiya və kommunikasiya texnologiyaları tətbiq olunur. Doğma diyarımızda təhsilə göstərilən qayğı, yaradılan hərtərəfli şərait isə bəhrəsiz qalmır. Hər il ali məktəblərə sənəd verən abituriyentlərin qəbul imtahanlarında yüksək bal toplamaları göstərilən qayğının müsbət nəticələrindən xəbər verir.

2007-2008-ci tədris ilində ölkə təhsili tarixində ilk dəfə olaraq "Ən yaxşı müəllim" və "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqələrinin keçirilməsinə başlanılması təhsilə böyük önəm verildiyinin daha bir göstəricisidir.

Ötən ilin sonlarında ölkəmizin pedaqoji ictimaiyyətini dövlət başçısının növbəti sərəncamları sevindirdi. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli sərəncamları ilə 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumi təhsil müəssisəsi" və "Ən yaxşı müəllim" müsabiqələrində müvəffəqiyyət qazanan ümumi təhsil müəssisələri və müəllimlər mükafatlandırıldı. Həmin ümumi təhsil müəssisələri və müəllimlər arasında muxtar respublikamızda fəaliyyət göstərən məktəblər və müəllimlər də var. Culfa şəhər 2, Naxçıvan şəhər 14 nömrəli və Ordubad rayon Aşağı Əylis kənd tam orta məktəbləri müsabiqənin qalibləri sırasındadır. Müsabiqənin qalibi olmuş bu məktəblər 10000 (on min) manat məbləğində birdəfəlik pul mükafatları ilə mükafatlandırılıblar.

Muxtar respublikada təhsilin inkişafına öz töhfələrini verən Culfa şəhər 2 nömrəli tam orta məktəb nümunəvi təhsil ocaqları sırasında öncül yerlərdən birini tutub. Məktəbin uğurları çoxdur. Qazanılan uğurlar, hər şeydən əvvəl, özünü ali məktəblərə qəbulun dinamikasında, yüksək bal toplayan məzunların sayının artmasında göstərir. Belə ki, 2014-2015-ci tədris ilində ali məktəblərə sənəd verən 26 məzundan 18 nəfəri müxtəlif ali təhsil müəssisələrinə, 1 nəfər isə orta ixtisas məktəbinə qəbul olunub. Onlardan 7 nəfər 500-700 arası bal toplayaraq təhsil aldıqları məktəbin adını daha da ucaldıblar. Məktəbin yaddaqalan göstəricilərindən biri də Azərbaycanda keçirilən fənn olimpiadasında qazandığı uğurlu nəticədir. Ötən tədris ilində məktəbin şagirdləri müxtəlif fənlər üzrə olimpiadanın qalibi olublar.

Məktəb istedadlı şagirdləri ilə də seçilir. Belə ki, şagirdlər muxtar respublika səviyyəli müsabiqələrdə yüksək nəticələr əldə ediblər. Qeyd edim ki, məktəbin VI sinif şagirdi Uğur Ramazanlının adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılıb və o, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüb.

Məktəbin şagirdləri keçirilən kütləvi idman yarışlarında layiqli yerlər tutublar. Belə ki, məktəbin VII sinif şagirdi Abbas Məmmədov Ukraynanın Odessa şəhərində yeniyetmələr arasında keçirilən cüdo üzrə XII Avropa Beynəlxalq Turnirində bürünc medal qazanıb.

Mükafata layiq görülən qabaqcıl təhsil ocaqlarından biri də Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdir. 2007-ci ildə məktəb üçün yeni bina tikilərək ölkə başçısı cənab İlham Əliyevin iştirakı ilə müəllim və şagirdlərin istifadəsinə verilib. 1404 şagird yerlik olan məktəbdə 1050 şagirdin təlim-tərbiyəsi ilə 150 müəllim məşğul olur. Məktəbin uğurları hər il artır. Elə götürək 2014-2015-ci tədris ilini. Məktəbi bitirən 45 nəfər məzundan 41 nəfəri ali məktəblərə sənəd verib. Onlardan 33 nəfəri ali məktəblərə, 2 nəfəri isə orta ixtisas məktəblərinə qəbul olunub. Ali məktəblərə qəbul olan məzunlardan 9-u 500-700 intervalında bal toplayıb. Tələbə adını qazanan məzunlardan Ləman Orucova 685 bal toplayaraq Prezident təqaüdünə layiq görülüb.

Müsabiqə qaliblərindən olan Ordubad rayonunun Aşağı Əylis kənd tam orta məktəbi 1976-cı ildən fəaliyyət göstərir. Məktəb üçün 2014-cü ildə yeni bina istifadəyə verilib. 234 şagird yerlik 3 mərtəbəli məktəb binasında 3 elektron lövhəli sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat otağı, kitabxana, idman zalı və açıq idman qurğuları dərslərin ən yüksək səviyyədə keçilməsinə imkan verir. Müasir tələblər səviyyəsində inşa olunan binada yaradılan tədris şəraiti məktəb kollektivinin yüksək təhsil uğurları qazanmasına imkan verib. Belə ki, ötən tədris ilində məktəbi bitirən 9 nəfər şagirddən 7-si ali məktəbə qəbul üçün sənəd verib və onların hamısı tələbə adını qazanıb. Həmin məzunlardan 3-ü 500-600 arası bal toplayıb.

Təhsil ocağının şagirdlərinin idmanda qazandığı uğurlar da az deyil. Məktəbin şagirdi Mərhəmət Əliyeva şahmat üzrə muxtar respublika çempionatında 2-ci yeri tutub. Hərbi idman oyunlarında məktəbin komandası dəfələrlə rayon birincisi olub.

Hər üç məktəbin pedaqoji kollektivləri ilə sözügedən sərəncamdan sonrakı görüşlərimiz zamanı söhbətlərimizdə onlar dövlətimiz tərəfindən məktəblərə və müəllimlərin əməyinə verilən yüksək qiymətə görə minnətdarlıqlarını bildirdilər. Onu da xüsusi vurğuladılar ki, ölkə başçısının bütün çıxışlarında, elm, sənət adamları ilə görüşlərində səmimiyyətlə söylədiyi, artıq aforizmə çevrilən bir kəlamı var: ***"Biz iqtisadi potensialımızı intellekt kapitalına çevirməliyik".*** Bunu artıq hər bir təhsil işçisi bir vəzifə kimi qəbul edir. Təhsil işçiləri ölkəmizdə kifayət qədər intellekt kapitalının formalaşması üçün bundan sonra da səy və əzmkarlıq göstərəcəklər.

**Sara ƏZİMOVA**



## İncəsənət fakültəsi musiqi mədəniyyətimizə layiqli töhfələr bəxş edir

***Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsi də fəaliyyət göstərir. Fakültənin yerləşdiyi korpus 2007-ci ildə ali məktəbin 40 illik yubileyi ərəfəsində istifadəyə verilib. Burada kafedraların normal fəaliyyəti, yüksək səviyyəli mütəxəssis hazırlığı üçün hər cür şərait yaradılıb, 240 nəfərlik konsert salonu, müxtəlif musiqi ixtisasları və alətləri üzrə siniflər, müvafiq mühazirə otaqları müəllim və tələbələrin istifadəsinə verilib.***

Bu təhsil ocağının gənclərin musiqi tərbiyəsində, muxtar respublikamız üçün istedadlı musiqiçilər yetişdirilməsində mühüm rolu vardır. Milli, eləcə də dünya klassik musiqisini özünəməxsus şəkildə tələbələrə tədris edən, onun sirlərini gələcək nəsillərə çatdıran İncəsənət fakültəsi ötən illər ərzində uğurlu bir yol keçib.

Hazırda fakültədə Bəstəkarlıq, Musiqişünaslıq, Solo, Xalq çalğı alətləri, Simli alətlər kafedraları fəaliyyət göstərir. Müəllimlərdən Aynur Məmmədova, Samirə Hüseynova, Rumiyyə Qasımova, Yaşar Xəlilov və yüksək peşə hazırlığı ilə seçilən digər müəllimlər əzmlə çalışaraq gənclərə incəsənətin sirlərini öyrətməyə çalışırlar. Onlar bir həqiqəti yaxşı dərk edirlər ki, bura gənclər üçün sənət yollarına atılan addımların başlanğıcıdır. Buranın məzunlarının sonradan musiqini özünə sənət seçib-seçməyəcəyindən asılı olmayaraq, musiqi onların estetik tərbiyəsində, dünyagörüşünün genişləndirilməsində böyük rol oynayır. Əgər musiqi müəllimi az-çox istedadlı tələbəyə musiqini qavramaq, duymaq qabiliyyətini aşılaya bilirsə, bununla o, gələcək nəslin estetik zövqünün formalaşmasına xidmət göstərmiş olur. Buna görə də müəllimlər öz tələbələrinin istedadlarının üzə çıxması və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən müəllimlərin təşəbbüsü ilə ötən il burada bir sıra tədbirlər keçirilib. Fakültədə yaradılmış orkestrin bu tədbirlərdə fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Bundan başqa, İncəsənət fakültəsində ildə bir dəfə hesabat konserti keçirilir, muxtar respublikanın aparıcı incəsənət ocaqlarından bu konsertə nümayəndələr dəvət olunur, onların fikirləri öyrənilir, burada müxtəlif incəsənət adamlarının yubiley tədbirləri də yüksək təşkilatçılığı və səviyyəsi ilə yadda qalır. Belə tədbirlər artıq ənənə halını alıb və bütün bunların musiqi sənətimizin yüksək səviyyədə təbliğində və xalqa çatdırılmasında böyük əhəmiyyəti vardır. İncəsənət fakültəsinin müəllim və tələbə heyəti muxtar respublikanın müxtəlif mədəniyyət müəssisələrində keçirilən tədbirlərdə, konsertlərdə, tamaşalarda, rəsm sərgilərində iştirak edirlər. Çox sevindirici haldır ki, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tələbələrin tez-tez müraciət etdiyi sənət məbədlərindən birinə çevrilib. Tələbələr tez-tez muxtar respublikanın qocaman musiqişünasları, musiqiçiləri qarşısında öz istedadlarını nümayiş etdirir, onların fikirləri öyrənilir. Bu da gələcəkdə yaxşı, professional bir musiqiçi olmaq baxımından çox faydalıdır.

Onu da qeyd edək ki, İncəsənət fakültəsi fəaliyyət göstərdiyi müddətdə müəllim kollektivi gənc müəllim qüvvəsi hesabına genişlənib. Onlar arasında fakültənin məzunları üstünlük təşkil edirlər. Bu da tələbələri daha da ruhlandırır, onları daha yaxşı oxumağa sövq edir. Tələbələr üçün bu prosesin faydalarından biri də budur ki, böyük iş təcrübəsi olan bacarıqlı müəllimlərlə istedadlı gənc müəllimlərin birgə səyi nəticəsində qabiliyyətli tələbələr üzə çıxarılır, onlarla çox ciddi hazırlıq işləri aparılır.

Fərəhlə qeyd etmək olar ki, muxtar respublikamızda fəaliyyət göstərən onlarla musiqi təhsili müəssisəsi arasında Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin öz yeri vardır. Əminliklə demək olar ki, bu təhsil ocağı bundan sonra da yeni-yeni uğurlar qazanaraq musiqi mədəniyyətimizə layiqli töhfələr bəxş edəcək.

**Fatma BABAYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***İncəsənət fakültəsinin tələbəsi***

## Naxçıvan Dövlət Film Fondu bayram günlərində məktəblilərə filmlər göstərib

Naxçıvan Dövlət Film Fondu bayram günlərində məktəblilərin asudə vaxtını səmərəli keçirmək üçün muxtar respublikanın iri yaşayış məntəqələrində Azərbaycan filmlərinin nümayişini təşkil edib. Kinoseanslarda, əsasən, Azərbaycan kinosu tarixində sevilən uşaq filmləri nümayiş olunub.

Fondun əməkdaşları məktəblilərə Azərbaycanda müxtəlif illərdə çəkilmiş uşaq filmləri haqqında da məlumat veriblər. Kəngərli rayonunda "Qaraca qız", Şərur və Babək rayonlarında "Biz qayıdacağıq", Şahbuz rayonunda "Bir qalanın sirri", Ordubad rayonunda "Şərikli çörək", Naxçıvan şəhərində isə "Ögey ana" bədii filmlərinə yüzlərlə məktəbli baxıb.

**Əli RZAYEV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 29/23 ünvanında yerləşən, Məmmədov Asəf Mehdi oğluna məxsus olan qeyri-yaşayış sahəsinin Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 15384 inventar nömrəli texniki pasportu və MH-0025816 seriya nömrəli Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Xok kənd sakini Rüstəmov Fəxrəddin Zalı oğlunun adına olan A-011366 inventar nömrəli texniki pasport və MH-0042757 seriya nömrəli torpaq sahəsinin plan ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Babayeva Hüsniyyə Zəfər qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babayev Zəfər Həsən oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 06